BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Ermənistanın II Qarabağ müharibəsində törədilən müharibə cinayətlərindəki rolu və məsuliyyəti


Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


MART 2025

## Ermənistanın II Qarabağ müharibəsində törədilən müharibə cinayətlərindəki rolu və məsuliyyəti

### Giriş

Azərbaycanın vaxtilə işğal edilən ərazilərində Ermənistan dövləti tərəfindən qanunsuz olaraq yaradılmış "Dağlıq Qarabağ respublikası"nda müəyyən "vəzifələr" tutmuş və 2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatları çərçivəsində həbs edilmiş erməniəsilli şəxslərin məhkəmə prosesi çərçivəsində verdiyi ifadələr rəsmi İrəvanı narahat etməyə başlayıb. Qeyd etmək lazımdır ki, 30 illik işğal dövründə Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən həmin şəxslərin ifadələri bəzi reallıqların üzə çıxmasına səbəb olub. Belə ki, Ermənistan dövlətinin və onun silahlı qüvvələrinin Azərbaycana və Azərbaycan xalqına qarşı törədilmiş müharibə cinayətlərində, sülh və insanlıq əleyhinə cinayətlərdə, o cümlədən soyqırım, əhalinin etnik təmizlənməsi, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərdə birbaşa məsuliyyət daşıdığı bildirilib. Xüsusilə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın mülki əhalisi arasında xeyli itki ilə nəticələn raket hücumlarının həyata keçirilməsində Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə rolu olduğu qeyd edilib. Məhz elə bunun nəticəsində Ermənistanın hakimiyyət nümayəndələri Bakıda keçirilən məhkəmə prosesinin qanuniliyini şübhə altına almaq məqsədi daşıyan bəzi əsassız bəyanatlar verməyə başlayıblar.

Bu təhlildə II Qarabağ müharibəsində hərbi qərarların alınmasında rəsmi İrəvanın bilavasitə rolu və buna dəlalət edən faktlar Ermənistanın qanunvericiliyi nöqteyi-nəzərdən və erməni mənbələri əsasında təqdim edilməyə çalışılacaq. Lakin bu, o demək deyil ki, hazırda məhkəmədə ittiham olunan şəxslərin törədilmiş cinayətlərdə heç bir günahı yoxdur. Belə ki, məhkəmə prosesində təqsirləndirilən Levon Mnatsakanyan və Davut Manukyan Ermənistan Silahlı Qüvvələri tərkibində Azərbaycana qarşı müharibələrdə iştirak etdiklərini etiraf etmişlər. İttiham olunan hər iki şəxs həmçinin I Qarabağ müharibəsinin iştirakçısıdır və Azərbaycanın ərazilərinin işğalında fəal iştirak ediblər. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan və onun əhalisinə qarşı bir çox cinayətlərdə ittiham olunan erməniəsilli şəxslər Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişlərinə əsasən hərəkət ediblərsə belə bu, əlbəttə, onları məsuliyyətdən azad etmir.

## Ermənistanın daxili qanunvericiliyi

Öncə onu qeyd etmək lazımdır ki, Ermənistan Konstitusiyasının 155-ci maddəsinin 1-ci bəndinə görə Silahlı qüvvələr hökumətə tabedir və silahlı qüvvələrin tətbiqi ilə bağlı qərarı hökumət qəbul edir. Həmin maddənin 4-cü bəndinə əsasən isə ölkənin baş naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı hesab edilir.[1] Yalnız bu faktlar Ermənistan dövlətinin Ermənistan silahlı qüvvələrinin törətdiyi əməllərdə hansı dərəcə məsuliyyət daşıdığını anlamaq üçün kifayətdir. Lakin Ermənistan qanunvericiliyinin digər maddələri bu arqumenti daha da gücləndirir. Belə ki, Ermənistanda sülh və müharibə dövründə Silahlı Qüvvələrin tətbiqi ilə bağlı qaydaları Ermənistan hökuməti tərəfindən 15 noyabr 2017-ci il tarixində qəbul edilmiş və hazırda da qüvvədə olan "Ermənistanın Müdafiə haqqında" qanunu tənzimləyir.[2] Bu qanunun müvafiq maddələrinə diqqət yetirsək, II Qarabağ müharibəsi zamanı Ermənistan hökumətinin törədilmiş cinayətlərdə hansı dərəcədə iştirak etdiyinə aydınlıq gətirmək mümkündür. Maddələr:

- 9-cu maddənin 5-ci bəndinə əsasən müharibə elan edildikdə baş nazir Silahlı Qüvvələrin Ali Baş Komandanı qismində müharibə dövrünün siyasi və hərbi qərarlarını qəbul edir;
- 16-cı maddənin 1-ci bəndində əsasən Silahlı Qüvvələr Ermənistan Respublikası hökumətinin yurisdiksiyasındadır;
- 16-cı maddənin 2-ci bəndinə əsasən Silahlı Qüvvələrə rəhbərliyi Ermənistan Respublikasının Müdafiə Naziri həyata keçirir;
- 16-cı maddənin 3-cü bəndinə əsasən Silahlı Qüvvələrin bilavasitə komandanı Silahlı Qüvvələrin Baş Qərargah rəisidir. Müharibə dövründə Silahlı Qüvvələrin Baş Qərargah rəisi Silahlı Qüvvələrin Ali Baş Komandanına tabedir;
- 17-ci maddəyə əsasən Silahlı Qüvvələrin Baş Qərargah rəisi öz səlihiyyətləri çərçivəsində Ermənistan Respublikası və Baş qərargah adından fəaliyyət göstərir, əmrlər və göstərişlər verir, habelə Ermənistan Respublikası və ya Baş Qərargah adından hərəkət etmək hüququ üçün etibarnamələr verir.

Əlbəttə, yuxarıda sadalanmış müddəaların hüquqi qüvvəsinin olması üçün Ermənistanda hərbi vəziyyətin elan olunması şərt idi. Bunu da Ermənistan hökuməti

[1] President.am, "Ermənistan Respublikasının Konstitusiyası" (Հայաստանի Հանրապետության Սահմանադրություն), 06 dekabr 2015, https://www.president.am/ru/constitution-2015/ (baxılıb: 04 mart 2025)

[2] Arlis.am, "Ermənistan Respublikasının Müdafiə haqqında qanunu" (Հայաստանի Հանրապետության Պաշտպանության մասին օրենք), 17 noyabr 2015, https://www.arlis.am/documentview.aspx?docid=117631 (baxılıb: 04 mart 2025)

27 sentyabr 2020-ci il tarixində verdiyi N-1586-H nömrəli qərarı ilə açıq şəkildə təsdiq edib.[3] Bu qərar Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən imzalanıb və həmin qərara əsasən bütün ölkə ərazisində müharibə vəziyyəti elan edilib.

Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan Silahlı Qüvvələri II Qarabağ müharibəsinə cəlb edilib və həyata keçirilən hərbi əməliyyatlardan Ermənistan hökumətinin xəbəri olub və buna görə bilavasitə məsuliyyət daşıyıb. Bu hərbi əməliyyatlara Ermənistan Silahlı Qüvvələrinin silahlanmasında olan reaktiv yaylım atəş sistemlərinin və əməliyyat-taktiki raket komplekslərinin hərbi hədəf olmayan Gəncə və Bərdə şəhərlərinə hücumları da daxildir. Qeyd edək ki, bu şəhərlərə hücum zamanı Ermənistan Silahlı Qüvvələri 1949-cu il tarixli Cenevrə Konvensiyasına görə dinc əhaliyə atılması qadağan olunmuş kasetli döyüş başlıqlarından istifadə edib. Bu fakt "Amnesty International" təşkilatı tərəfindən də müəyyən edilib.[4]

## Müharibə cinayətlərində istifadə edilən silah vasitələri, silahlı birləşmələr və onların tabeliyi

II Qarabağ müharibəsi dövründə Azərbaycanın dinc əhalisinin yaşadığı yaşayış məntəqələrinə edilmiş hücumların təhlili və hücum edilmiş şəhər ərazilərindən tapılan raket parçalar onu göstərir ki, zərbələr "Smerç" reaktiv yaylım atəş sistemi, habelə "Elbrus" və "İsgəndər" əməliyyat-taktiki raket kompleksləri ilə həyata keçirilib.[5] Rəsmi erməni mənbələrinə istinadən əminliklə qeyd etmək olar ki, bu silah sistemləri Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahının Raket Qoşunları və Artilleriya İdarəsinin tabeliyindəki hərbi hissələrin balansında olub.[6] Raket Qoşunları və Artilleriya İdarəsi isə Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahına tabe olan struktur bir bölmədir və bu Ermənistan hökumətinin 4 iyul 2019-cu il tarixli N 922-L nömrəli qərarında öz əksini tapıb.[7] Dolayısilə mövcud faktlardan belə qənaətə

---

[3] Arlis.am "Ermənistan Respublikasında müharibə vəziyyətinin elan edilməsi haqqında Ermənistan Respublikası Hökumətinin qərarı" (Հայաստանի Հանրապետությունում ռազմական դրություն հայտարարելու մասին Հայաստանի Հանրապետության Կառավարության որոշում), 27 sentyabr 2020, https://www.arlis.am/DocumentView.aspx?docid=146450 (baxılıb: 01 mart 2025)

[4] Geneva.mfa.gov.az, "Amnesty International Ermənistanın Azərbaycanın Bərdə şəhərinə qarşı qadağan olunmuş kaset bombalarından istifadə etdiyini təsdiqləyib" (Amnesty International confirms use of banned cluster bombs by Armenia against Azerbaijan's Barda city), 30 oktyabr 2020, https://geneva.mfa.gov.az/en/news/amnesty-international-confirms-use-of-banned-cluster-bombs-by-armenia-against- azerbaijans-barda-city (baxılıb: 04 mart 2025)

[5] Human Rights Watch, "Ermənistanın Azərbaycana qarşı qanunsuz raket zərbələri", 28 yanvar 2021, https://www.hrw.org/az/news/2021/01/28/377321 (baxılıb: 25 fevral 2025)

[6] Datalex.am "Məhkəmə sənədi" 15 noyabr 2022, https://datalex.am:443/?app=AppCaseSearch&case_id=30962247438320678 (baxılıb: 20 fevral 2025)
Datalex.am "Məhkəmə sənədi" 25 may 2021 https://datalex.am:443/?app=AppCaseSearch&case_id=38843546786177162 (baxılıb: 20 fevral 2025)

[7] Arlis.am, "ER Silahlı Qüvvələrinin Baş Qəbarərinin nizamnaməsinin təsdiq edilməsi haqqında ER hökumətinin qərarı" (ՀՀ

gəlmək olar ki, Gəncə və Bərdəyə edilmiş hücumlar Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə tabe olan İdarənin rəisi tərəfindən verilmiş əmr və Baş Qərargah rəsinin məlumatı daxilində həyata keçirilmişdir. Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi müharibə dövründə ölkənin Baş nazirinə tabe olduğu üçün isə Ermənistan dövləti bu əmrlərin verilməsində bilavasitə iştirak edib və buna görə məsuliyyət daşımalıdır.

II Qarabağ müharibəsində adları yuxarıda qeyd edilmiş silah sistemlərinin tətbiqilə bağlı maraqlı faktlar da mövcuddur. Belə ki, "Elbrus" və "İsgəndər" raket sistemlərinin hücumlarının Ermənistan ərazisindən, "Smerç" zərbələrinin isə Azərbaycanın vaxtilə işğal olunmuş ərazilərindən həyata keçirildiyi müəyyən edilmişdir. Bu faktı təsdiq edən bir çox mənbə olsa da, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həmin sistemlərin məhv edilməsi ilə bağlı paylaşdığı videoçarxlar bu reallığı tam əks etdirir.[8] Xüsusilə onu da qeyd etmək lazımdır ki, "Smerç" reaktiv yaylım atəş sistemləri Ermənistan ərazisində dislokasiya olunan hərbi hissənin silahlanmasında olub və onların vaxtilə işğal edilmiş ərazilərə daxil olması və məhz həmin ərazilərdən hərbi əməliyyatlara cəlb edilməsi yuxarı komandanlığın xəbəri, əmri, yaxud göstərişi olmadan mümkün deyil. "Elbrus" və "İsgəndər" əməliyyat-taktiki raket kompleksləri ilə üçüncü ölkənin ərazisinin vurulması əmrinin verilməsinə də eyni məntiqlə yanaşmaq lazımdır. Ümumiyyətlə, bütün ordularda bu tip qərarlar alınmadan öncə ölkənin Ali komandanlığı ilə razılaşdırılır, onların göstərişinə və razılığına uyğun əmrlər icra edilir. Nəticə etibarilə onu demək olar ki, həmin hərbi hissələr Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahının mərkəzi tabeliyində olmuş və məhz oradan alınan əmr və göstərişləri icra etmişdir.

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Gəncə və Bərdə şəhərlərinə raket zərbələri endirən və bir çox dinc əhalinin ölməsinə səbəb olan hərbi qulluqçuları mükafatlandırıb. Belə ki, baş nazir Paşinyanın vəsatətinə əsasən keçmiş Ermənistan prezidenti Armen Sarqsyanın 03.11.2020-ci il tarixli HN-283-A nömrəli sərəncamı ilə "Smerç" reaktiv yaylım atəş sistemlərinin,

---

կառավարության որոշումը ՀՀ Զինված Ուժերի Գլխավոր Շտաբի Կանոնադրությունը հաստատելու մասին), 04 iyul 2019 https://www.arlis.am/DocumentView.aspx?docID=185425 (baxılıb: 13 fevral 2025)

[8] Azerbaijan_mod, "Bərdə və Tərtər şəhərlərini atəşə tutan düşmənə məxsus daha 2 "Smerç" bu gün məhv edilib", Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 30 oktyabr 2020, https://www.youtube.com/watch?v=SRDejHvMavI (baxılıb: 15 yanvar 2025)
Azerbaijan_mod, "ƏTRK məhv edilməsi", Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 22 oktyabr 2020, https://www.youtube.com/watch?v=91YFE6Qom7s (baxılıb: 15 yanvar 2025)
Naxcivantv, "Ordumuzun məhv etdiyi "Elbrus" (SCUD) operativ taktiki raket kompleksinin görüntüləri yayıldı", Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi 13 noyabr 2020, https://www.youtube.com/watch?v=d-UIRtgfUE4 (baxılıb: 10 fevral 2025)

habelə “Elbrus” və “İsgəndər” əməliyyat-taktiki raket komplekslərinin şəxsi heyəti döyüş əməliyyatları zamanı göstərdikləri “şücaət” və “məharətə” görə mükafatlandırılıblar.[9] Qeyd edək ki, mükafatlandırılmış şəxsi heyətin bəziləri daha əvvəl Ermənistan Müdafiə Nazirliyinin verilişlərində həmin texnikaların yanında müşahidə edilib.[10]

Ermənistan Silahlı Qüvvələrinin vaxtilə işğal edilmiş ərazilərdə dislokasiya olunmasına və II Qarabağ müharibəsində döyüşə cəlb edilməsinə dəlalət edən daha bir fakt Ermənistanın Gorus şəhər məhkəməsinin 07 fevral 2025-ci il tarixində verdiyi hökmündə görmək mümkündür. Belə ki, məhkəmə qanunsuz silahlı birləşmələrin keçmiş komandanı Calal Harutyunyanı II Qarabağ müharibəsində yol verdiyi səhlənkarlıq nəticəsində səbəb olduğu itkilərə görə 5 il 6 ay azadlıqdan məhrum edib.[11] C.Harutyunyana Ermənistan Cinayət Məcəlləsinin 550-ci maddəsinin 3-cü bəndinə əsasən hökm çıxarılıb və onu Ermənistan Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin 31-ci, 36.1-ci, 39-cu, 73-cü və 78-ci maddələrini icra etməməkdə təqsirli biliblər. Qeyd edək ki, Calal Harutyunyana irəli sürülən ittihamın təsvirində, onun, Ermənistan hökumətinin hərbi vəziyyətin elan edilməsi ilə bağlı 27 sentyabr 2020-ci il tarixli, N-1586-H nömrəli qərarından irəli gələn tələblərin icrasını düzgün yerinə yetirmədiyi və təsadüfən ağır nəticələrə səbəb olduğu bildirilib.[12] Beləliklə, Ermənistan hakimiyyəti qanunsuz silahlı birləşmələrin Ermənistan Silahlı Qüvvələrinin tabeliyində olmadığını iddia etməsinə bamayaraq, bu məhkəmə qərarı əslində bunun belə olmadığını, Ermənistan hakimiyyətinin iddialarının da əslində yalan olduğunu sübüt etmiş olur. Yəni Calal Harutyunyanın Ermənistanın daxili qanunvericiliyi əsasında cinayət məsuliyyətinə cəlb edilib və ona hökmün çıxarlamasının yalnız bir izahatı ola bilər. Bu da, odur ki, Calal Harutyunyan

---

[9] President.am, “Ermənistan Respublikası Prezidentinin fərmanı” (Հայաստանի Հանրապետության Նախագահի հրամանագիրը), 03 noyabr 2020, https://www.president.am/ru/decrees/item/5138/ (baxılıb: 05 fevral 2025)

[10] NorayrIsrayelyan, “300 mm 9K58 “Smerch” uzunmənzilli reaktiv buraxılış raket sistemi” (300 մմ երկարությամբ հեռահար բազմակի արձակման հրթիռային համակարգ 9K58 «Սմերչ»), Norayr İsrayelyan, 11 aprel 2021, https://www.youtube.com/watch?v=p_NBUrnFAuo (baxılıb: 02 fevral 2025)
BanakNews, “9K72 "Elbrus" (Scud) və 9K720E "İskəndər-E" ƏTRK-ları Ermənistan ordusu” (9Կ72 «Էլբրուս» (Սկադ) և 9Կ720Է «Իսկանդեր-Է» ՕՄՀՀ-ներ: Հայկական Բանակ), Banak News, 09 dekabr 2018, https://www.youtube.com/watch?v=DnklB0P3EXQ (baxılıb: 27 yanvar 2025)
MrBurjuin, “Ermənistan ordusunun RYAS 9K58 “Smerç”i” (РСЗО 9К58 «Смерч» Армянской Армии), MrBurjuin, 19 fevral 2019. https://www.youtube.com/watch?v=v5MjfExkzZw (baxılıb: 25 yanvar 2025)

[11] Arm.sputniknews.ru, “Cəlal Harutyunyan 5,5 il müddətinə azadlıqdan məhrum edilib” (Ջալալ Հարությունյանը դատապարտվեց 5,5 տարվա ազատազրկման), 07 fevral 2025 https://arm.sputniknews.ru/20250207/jalal-harutjunjany-datapartvec-55-tarva-azatazrkman-__85567519.html (baxılıb: 10 fevral 2025)

[12] Datalex.am, “Məhkəmə sənədi” 07 fevral 2025 https://datalex.am:443/?app=AppCaseSearch&case_id=35465847065628645 (baxılıb: 24 fevral 2025)

Ermənistan vətəndaşıdır, vaxtilə işğal edilmiş ərazilərdə yerləşən qanunsuz silahlı birləşmələr də Ermənistan Silahlı Qüvvələrinin struktur bir bölməsidir. Dolayısilə qeyd etmək olar ki, ləğv edilmiş qondarma rejimin keçmiş strukturları birbaşa Ermənistan dövlətinin nəzarəti altında olub. Ona "rəhbərlik" edən və bir çox cinayətlərin törədilməsində ittiham olunan erməniəsilli şəxslər isə Ermənistanın tapşırıqlarını yerinə yetirib.

## Beynəxalq hüquq nöqteyi-nəzərdən Ermənistanın məsuliyyəti

II Qarabağ müharibəsi zamanı Ermənistanın mülki obyektlərə və mülki şəxslərə qarşı həyata keçirdiyi hücumlar, həmçinin müharibə qanunlarını pozması, beynəlxalq hüquq və insan hüquqları ilə bağlı ciddi pozuntulara səbəb olmuşdur. Bu, müharibə qanunlarının və beynəlxalq hüququn, xüsusən Cenevrə Konvensiyalarının, Haaqa Konvensiyalarının və BMT Nizamnaməsinin pozulması ilə nəticələnmişdir. Qeyd edək ki, Ermənistan Respublikası 07.12.1993-cü il tarixində 1949-cu il Cenevrə Konvensiyasına və onun I və II Əlavə Protokollarına qoşulub və bununla bağlı öhdəlikləri götürüb.[13] 1977-ci ildə qəbul edilmiş Cenevrə Konvensiyasının I Əlavə Protokul isə "Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsi"nə aiddir. Həmin protokolun 52-ci maddəsinə görə aşağıdakılar qadağan edilir:

- mülki obyektlər hücum və ya repressiya obyekti olmamalıdır;
- hücumlar ciddi şəkildə hərbi məqsədlərlə məhdudlaşdırılmalıdır.

Həmçinin, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin itkisinə səbəb olan hücumları həyata keçirməklə 26.04.2002-ci il tarixində qoşulduğu[14] Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci və 3-cü maddələrinə də pozmuş hesab edilir. Qeyd edək ki, AİHK konvesiyasının 2-ci maddəsində hər bir insanın yaşamaq hüququnun qanunla qorunduğu və heç kimin qəsdən həyatdan məhrum edilə bilmədiyi qeyd olunub. 3-cü maddəsi isə heç kəsin işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qala bilmədiyini nəzərdə tutur.

---

[13] Arlis.am "12 avqust 1949-cu il tarixli Cenevre Konvensiyalarına əlavə və beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsi haqqında protokol" (Լրացուցիչ արձանագրություն միջազգային զինված ընդհարումների զոհերի պաշտպանության մասին 1949 թվականի օգոստոսի 12-ի Ժնևի Կոնվենցիաների), 07 dekabr 1993, https://www.arlis.am/DocumentView.aspx?docID=81055 (baxılıb: 13 yanvar 2025)

[14] Arlis.am, "11 №-li Protokolla dəyişilən İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi üzrə Konvensiya" (Կոնվենցիա Մարդու Իրավունքների եվ Հիմնարար Ազատությունների Պաշտպանության մասին փոփոխված 11-րդ Արձանագրությամբ), 26 aprel 2002, https://www.arlis.am/DocumentView.aspx?docID=81165 (baxılıb: 03 mart 2025)

Ümumiyyətlə, II Qarabağ müharibəsi dövründə Ermənistanın hərbi-siyasi rəhbərliyinin aldığı qərarlar beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqla yanaşı, Ermənistanın daxili qanunvercilik müddəalarını da pozub. Belə ki, Ermənistan Cinayət Məcəlləsinin 390-cı maddəsinə əsasən silahlı münaqişələr zamanı hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən və ya müdafiə vasitələrindən məhrum olan şəxslərə, mülki şəxslərə, mülki əhaliyə qarşı beynəlxalq humanitar hüququn ciddi pozuntusu hesab edilən əməllərin törədilməsi qadağan edilir.[15]

## Nəticə

Mövcud faktlar, onu deməyə əsas verir ki, II Qarabağ müharibəsi dövründə hərbi əməliyyatlarda iştirak edən bölmələr Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahına tabe olub və birbaşa ölkənin ali hərbi komandanlığının əmrlərini icra edib. Bununla da müharibə cinayətlərinin törədilməsinə səbəb olan hərbi qərarların alınmasında rəsmi İrəvan bilavasitə məsuliyyət daşıyıb.

Ermənistan Respublikası törədilən hərbi cinayətlərdə həm öhdəlik götürdüyü beynəlxalq hüquq normalarını, həm də daxili qanunvericiliyinin bir sıra müddəalarını kobud şəkildə pozub. Buna görə də Ermənistan Azərbaycana ziyan vurduğu əməllərinə görə cavab verməlidir.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

[15] Arlis.am, "ER Cinayət Məcəlləsi" (ՀՀ Քրեական Օրենսգիրք), 01 avqust 2003, https://www.arlis.am/documentview.aspx?docid=69646 (baxılıb: 03 mart 2025)